**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**«Təsdiq edirəm»**
**filologiya fakültəsinin dekanı**
**dos.əv. E.H.Məmmədov**
**13 dekabr 2017**

# Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında

# H E S A B A T I

**BAKI – 2017**

## 1. GİRİŞ.

Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müəllimləri dərs yükü ilə yanaşı, hər il elmi-tədqiqat işlərini yerinə yetirirlər. Həmin elmi işlər Azərbaycan folklorunun aktual problemləri üzrə üçillik plan şəklində müəllimlər arasında bölünmüşdür. Bölüşdürülmə aşağıdakı strukturu əhatə edir.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ:

1. S.H.Orucova – fil.e.d, professor – 1971-ci ildə anadan olmuşdur
2. N.Q.Xəlilov – fil.e.d., professor – 1949-ci ildə anadan olmuşdur
3. E.Ə.Talıblı – fil.f.d., dosent – 1958-ci ildə anadan olmuşdur
4. M.M.Məmmədov – fil.f.d., dosent – 1963-cü ildə anadan olmuşdur
5. K.F.İslamzadə – fil.f.d., dosent – 1967-ci ildə anadan olmuşdur
6. Ü.A.Nəbiyeva – fil.e.d., professor əv.– 1974-cü ildə anadan olmuşdur
7. K.K.Həsənova – fil.f.d., 0,5 ştat – 1976-cı ildə anadan olmuşdur
8. G.E.Axundova – böyük laborant, 0,5 ştat – 1988-ci ildə anadan olmuşdur

## 3. KAFEDRALARDA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI, YERİNƏ YETİRİLMƏSİ.

2017-ci ildə Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının əməkdaşları **«Azərbaycan epik folklorunun janrları və onların xüsusiyyətləri»** adlı ümumi üçillik problemin 7 mövzusu – üzərində çalışıblar.

Planlaşdırılmış mövzulardan aşağıdakılar yerinə yetirilmişdir:

**İş «A»: «Azərbaycan folklorunun epik növün janrları»**

İcraçı: **prof. S.H.Orucova**

Mərhələ III: « Azərbaycan dastanlarında mifik obrazlar »

Dastan şifahi xalq ədəbiyyatının həcmcə ən böyük janrıdır. Ədəbiyyatşünaslıqda dastana epos da deyilir. Başqa janrlardan fərqli olaraq, dastanda həm nəsr, həm də nəzm hissələri olur. Dastandakı hər hansı bir əhvalat, hadisə nəsrlə söylənilir və yeri gəldikcə mövzu ilə bağlı şeir parçaları da verilir. Bu xüsusiyyətinə görə dastan bəzən epik-lirik adlanan xüsusi bir ədəbi növə aid edilir. Dastanın nəzm hissəsi, adətən, qoşma və gəraylılardan ibarət olur və saz havası üstündə oxunur. Dastanlar mövzu və məzmunlarına görə iki növə bölünür: qəhrəmanlıq dastanları, məhəbbət dastanları. Qəhrəmanlıq dastanlarında xalqın həyatı ilə bağlı tarixi hadisələrdən, onun haqq-ədalət və azadlıq uğrunda apardığı mübarizədən bəhs edilir. Belə dastanların qəhrəmanları xalq içərisindən çıxmış mərd və igid insanlar olur. Ən məşhur qəhrəmanlıq dastanları "Kitabi-Dədə Qorqud", "Koroğlu" və "Qaçaq Nəbi"dir. Qəhrəmanlıq dastanları, əsasən, xalq qəhrəmanları haqqında olan rəvayət və nəğmələr əsasında yaranır.

Dastanlarda Təpəgöz, Xızır Nəbi kimi mifik obrazlara rast gəlinir. «Kitabi-Dədə Qorqud» eposunda əski təsəvvür və etiqadlar, türk eposçuluğu ənənələrini əks etdirən süjetlərlə yanaşı, əski qəhrəman arxetipini əks etdirən süjet, motiv və obrazlar da vardır. Onlar eposun hələ tədqiqinin ilk dövründən araşdırıcıların diqqətini cəlb etmiş, onlarla bağlı müxtəlif dövrlərdə ayrı-ayrı araşdırıcılar müəyyən mülahizələr irəli sürmüşlər. «Kitabi-Dədə Qorqud» dastanının mövzu və məzmunu, onun əski dünyagörüşləri əks etdirməsi barədə müəyyən fikirlər söylənmişdir. Onlar zaman keçdikçə daha da dərinləşmiş, yeni fərziyyə və faktlarla zənginləşmiş, lakin vahid bir nəticənin əldə edilməsi hələ mümkün olmamışdır.

«Kitabi-Dədə Qorqud»da özünü göstərən belə arxaik qəhrəman tipləri içərisində obrazların tarixi qruplaşması geniş və əhatəlidir. Belə ki, günümüz üçün eposun bir sıra süjetləri tam arxaikdir. Oğuz həyat və məişətinin, dövlətçiliyinin arxaik hökmdarı Bayandır xan, qoşun başçısı Qazan bəy, oğuz bəyləri, ozan obrazının ən qədim arxeotipi Dədə Qorqud, Qanturalı və onun sevgilisi Sarı donlu

Selcan xatun və başqaları eposun arxaik qəhrəman arxeotipləri qrupuna məxsusdur. Onların bir çoxunun eposdakı yeri, mövqeyi ilə yanaşı, tarixi qaynaqlarla bağlılığının əsas və başlıca istiqamətləri dürüstləşdirilməmişdir. Bütün bunlar gələcək tədqiqatların obyekti ola bildiyi kimi, eposdakı daha qədim dövrün arxaik qəhrəman arxeotipləri olan Təpəgöz və Dəli Domrul barədə aparılan araşdırmaların yekunlaşdırılmasına da təbii ki, ehtiyac vardır. V.Bartolda görə buradakı Təpəgöz mifoloji səciyyəlidir, Y.Yakubovski isə bütün bunları oğuzların tarixi ilə bağlayır. Y.Meletinski bu motivi Şərqdə çox qədimdən yayılan əfsanə və nağıllar üçün ənənəvi hesab edir. F.Sümərin Təpəgözlə bağlı mülahizələri də maraq doğurur: «...Təpəgöz bəlkə də əslində Oğuzlara böyük ziyanlar vurmuş, itgilər vermiş bir düşməni təmsil edir. Yəni Təpəgöz bu ləqəbi daşıyan qıpçaqlardan bir düşmən başçısı da ola bilər. O, başqınları ilə oğuzları, əsasən bozoxları qorxunc məğlubiyyətlərə uğratmış, Basatın böyük qardaşı Qıyan Səlcuq, Dəmir donlu Mamaq, Dözən oğlu Alp Rüstəm və Uşun Qoca və onun iki qardaşı kimi bəylər baş verən döyüşlərdə ölmüşlər. Basat sonra Təpəgözü məğlub edib öldürür, qardaşının və yoldaşlarının qisasını alır. Aradan zaman keçdikcə, Təpəgözün bu ləqəblə yad edilməsində bəlkə xarici bir təsirin də rolu olmuş, o fövqəltəbii bir varlıq olaraq təsəvvür edilmişdir». Elə oradaca Məmluk əmirlərindən birinin Təpəgöz ət-Tuğrulı adını daşınmasına istinad edərək Təpəgözün həmin sərkərdə olması ehtimalını da xatırlayır.

«Kitabi-Dədə Qorqud»da isə arxaik qəhrəman arxeotipi kimi, Təpəgözün mövqeyi tam və bütövdür. Azərbaycan folklorunda Xızır və onunla bağlı inanclar, daha dəqiq desək Xızır İlyas kultu tədqiqatçıların diqqətini hər zaman cəlb etmişdir. Yalnız Azərbaycanda deyil, digər türk xalqlarında da Xızırla bağlı inanclar dərin kök salmış, həm folklorşünasların, həm də dini tədqiqatçıların əsas tədqiqat obyektinə çevrilmişdir. Şifahi xalq ədəbiyyatında Xızır daha çox baharın, yazın gəlişi ilə əlaqədar obraz kimi tanınsa da, folklorda onun digər funksiyaları da geniş şəkildə təsvir olunmuşdur. Bunlar dastanlarda daha qabarıq şəkildə özünü büruzə verir. Xızır burada daha çox dada çatan, imdada yetən, xilaskarlıq funksiyasını yerinə yetirir. Folklorun ən geniş qollarından olan dastanlarımızda ilahi qüvvə kimi çıxış edir.

Dastanlarımızda sehrli qüvvə kimi təqdim olunan Xızır, yaxud Xıdır Nəbi aşiqi çıxılmaz vəziyyətlərdən qurtarır. Dədə Qorqud dastanında da Xızır obrazı özünəməxsus çalarlarla təsvir olunur. Ölümcül halda olan Buğaçın yarasına sığal çəkərək onu həyata qaytaran Xızırın təsviri və məsləhətlərində qədim türk mifoloji inamları təcəssüm olunmuşdur.

**İş «B»: « XIX-XX yüzilliklərdə aşıq poeziyası və yazılı ədəbiyyat »**

İcraçı: **prof. N.Q.Xəlilov**

Mərhələ III: «XX əsrin sonlarında (1990-2000) aşıq poeziyası və yazılı ədəbiyyat»

Azərbaycan folklorunun və ədəbiyyatının zənginliyi ilə fərqlənən ən böyük qolu aşıq poeziyası və aşıq yaradıcılığıdır. Aşıq yaradıcılığının çox fərqli problemləri, əsasən də yaranma və inkişaf tarixi, janr sistemi mövzu rəngarəngliyi, ideya-estetik qayəsi həmişə tədqiqatçıların diqqət mərkəzində olmuş, fərqli istiqamətlərdə, aspektlərdə tədqiqata cəlb edilmiş və öyrənilmişdir. Bunun nəticəsində ədəbiyyatşünaslığımızda və folklorşünaslığımızda elmə dəyərli töhfələr verən sanballı Azərbaycan aşıqşünaslığı, aşıq folklorşünaslığı formalaşmış müasir mərhələsinə yüksəlmişdir.

Belə mühüm problemlərdən biri də, aşıq yaradıcılığının, xüsusən aşıq poeziyasının yazılı ədəbiyyatı, yazılı poeziyaya təsiri məsələsidir, daha doğrusu, hər iki qolun bir-birinə təsirinin müasir elmi-nəzəri prinsiplər əsasında tədqiqi və öyrənilməsidir.

Elmi işi yazanda nəzərdə tutduq ki, bir neçə şairin yaradıcılığına müraciət müraciət edək. Lakin Zəlimxanın yaradıcılığı ilə daha yaxından tanış olduqda gördük ki, Zəlimxanın yaradıcılığı tamam başqadır. Onun yaradıcılığından nəinki bir elmi iş, hətta doktorluq dissertasiyası yazmaq olar. Çünki Zəlimxan Yaqubun yaradıcılığı mövzu baxımından da, sənətkarlıq baxımından da çox zəngin və genişdir. Ona görə də fikirlərimizi onun yaradıcılığı əsasında qurmağa çalışacağıq.

Z.Yaqub aşıq sənətini, aşıq poeziyasını çox gözəl bilirdi. Aşıq poeziyasının vurğunu idi. Hər şeydən əvvəl Zəlimxan Yaqub sinədəftər idi. Bəlkə də onun qədər

aşıq poeziyasını əvvəldən bilən ikinci bir adam yoxdur. Tədqiqat işi bu istiqamətdə ümumiləşdirilmişdir.

**İş «C»: « XX əsr dünya folklorşünaslığı tarixi»**

İcraçı: **dosent E.Ə.Talıblı**

Mərhələ III: « Azərbaycan əfsanə və rəvayətlərinin nəşr və tədqiq tarixi»

Azərbaycan əfsanə və rəvayətlərinin janr poetikasının epik folklor kontekstində öyrənilməsi zərurəti onun nəşr və tədqiq tarixinin araşdırılmasını da aktuallaşdırır. Elmi tədqiqat işimiz bu mövzuya həsr olunmuşdur. Azərbaycan əfsanə və rəvayətlərinin nəşrinə XIX əsr rus dilli mətbuatda başlansa da, əsas nəşrlər XX əsrdə meydana çıxmışdır. Elmi işdə XX əsr Azərbaycan əfsanə və rəvayətlərinin nəşri və tədqiqi mərhələlər üzrə araşdırılmışdır. Nəşr və tədqiqatlarda uzun zaman rəvayətlərin əfsanələrdən fərqləndirilmədiyi də nəzərə alınmışdır. Hər mərhələ üzrə görülən işlər dəyərləndirilmiş, ümumiləşdirilmiş, hər mərhələnin elmi səciyyəsi verilmişdir. Elmi işdə gəldiyimiz qənaətləri belə ümumiləşdirmək olar:

Azərbaycan əfsanə və rəvayətləri ilə bağl milli folklorşünaslığda son yüzillikdə mühüm işlər görülmüşdür. Folklor materialları toplanmış və nəşr edilmişdir. Lakin janrın zəif qeydə alındığı bölgələrimiz hələ də qalmaqdadır. Bəzi folklor toplularında mətnlərin ədəbi işlənməsi janra aid müəyyən mətnlərin orijinallığına və elmi dəyərinə kölgə salmışdır. Çoxcildlik folklor antologiyalarında orijinal mətnlər elmi prinsiplər əsasında çap edilmişdir.

Bəzi araşdırmalarda əfsanə və rəvayətlərdən regional folklor kontekstində bəhs edilmişdir. Azərbaycan əfsanə və rəvayətlərinin öyrənilməsi, əsasən, müəyyən məqalələr və dərsliklər çərçivəsindədir. Hər iki janrın poetikasının müasir folklor nəzəriyyələri, qabaqcıl elmi tədqiqat metodları (struktur-semiotik, ritual-mifoloji, funksional-semantik və s.) əsasında, ümumtürk folklor kontekstində fundamental monoqrafik tədqiqinə elmi ehtiyac vardır.

**İş «Ç»: « Azərbaycan mifik təfəkküründə kultlar (ağac, dağ, Su, Boz qurd)»**

İcraçı: **dosent M.M.Məmmədov**

Mərhələ III: « Azərbaycan mifik təfəkküründə obrazlar (Xızır, Dədə Qorqud, Koroğlu və s.)»

Hər bir etnik-mədəni ənənənin dünya haqqında öz sisteminə uyğun mifopoetik düşüncə modeli, öz dünya mənzərəsi var ki, bu dünya modeli təcəssümünü tapdığı heç də tam olmayan bütün variantlarıyla birlikdə yenə bir bütövlük nümayiş etdirir. Həmin dünya mənzərəsinin bütövlüyünü səciyyələndirən başlıca cəhətlərdən biri buradakı mifoloji obrazlar aləmidir. Hər bir ənənənin özündə onun sistem kimi bütövlüyünü, başqalarından fərqliliyini təmin edən mifik personajlar silsiləsi mövcuddur. S.Tokarevə görə, mifoloji personajın birinci başlıca əlaməti onda xariqüladə, fövqəltəbii özəlliklərin olması, ikincisi də ona inamın olmağıdır.

Xızır əfsanələrə görə qaranlıq dünyadakı dirilik suyunu içib daim yaşayan və ölüb dirilən təbiəti simvolizə edərək əbədiyyətin rəmzinə çevrilmiş mifik varlıqdır. Türk folklorunda o eynilə Yer-su, Umay kimi bir övliya, bir ərəndir, hami ruh statusuna aid edilməsi mümkün olan mifoloji varlıqlardandır. Sufi inanclarında Xızırın bir vəli olduğu düşünülür. Xızırın məzarının bir neçə yerdə olması onun mifik təfəkkürdə real varlıq kimi qavranılan qoruyucu ruh, övliya olmağından irəli gəlir. Şiəlikdə mühüm yer tutan Xızır guya Həzrət Əlinin ölümünə görə Əhli-Beytə başsağlığı diləmiş, Həzrət Hüseyn şəhid olan zaman ardınca mərsiyə oxumuşdur. Ələvilərə görə Əlinin adlarından biri Xızırdır və bu adla da dünyada yaşayır

Xızır ölüb dirilməyə həqiqi inamı əks etdirən obraz kimi ölümsüz təsəvvür olunduğundan ölümün Haqdan gəldiyi qəbul olunan islam dini sistemindən kənarda qalır. Xızırın dirilik suyu işib ölməzliyə qovuşduğunu , deməli əbədi yaşadığını qəbul edənlər onun hələ Həzrət Adəm zamanında həyatda olduğunu, Nuh tufanından sonra Adəm peyğəmbərin o vaxtadək qorunan cəsədinin dəfnində iştirak etdiyini, Məhəmməd peyğəmbər və hətta Həzrət Əli ilə görüşdüyünü deyirlər. Bu ilahi varlıq kimin qarşısına çıxarsa onun gözündən varlığın sirr pərdəsini qaldırar-deyilir. Onda

ölənləri belə diriltmək qüdrəti vardır. Bu cisimsiz, gözəgörünməz varlıq istədiyi zaman görünməz ola bilir, özünü tanıtmayıncakimsə onu tanımır.

Türk xalq inanışlarında peyğəmbər olaraq qəbul edilən Xızır darda qalanların dadına yetişən mübarək üzlü bir varlıqdır. Xızırın ölümsüz təsəvvür edilməsinin əsasında dayanan motivlərdən biri elə onun əbədiyyəti və ölməzliyi rəmzləndirən su ilə bağlılığı olmalıdır. İslam türk etiqadlarına görə hər beş yüz ildən bir onun cismi, bədəni başdan-başa təzələnir. Xızır yaşıl geyimlidir, boz at minər, tez-tez səma məclislərinə qoşular, vəcd halına gələr. Burada onun övliyalıq yönü, daha güclüdür.

Xızırın gələcəyin aşıqları olan aşiqlərin yuxusuna girib onlara buta verməsi, eşq badəsi içirməsi motivi türk xalq yaradıcılığında geniş yayılmışdır. Xızır türk xalqlarının dastan qəhrəmanlarının hamisidir; xeyir duasıyla onları muradlarına yetirir. Xızırın sevdiyi ağ rəng isə ölülər dünyasını rəmzləndirir. Bolluq-bərəkət, artım rəmzi olan Xızırın kor təsəvvür olunması onu yeraltı dünya ilə, əcdad ruhların olduğu o biri aləmlə də bağlayır.

İlin bərəkətli, bol məhsullu olması üçün Xızır Nəbini qarşılama mərasimləri keçirilmişdir. O, yol və su ilə bağlıdır. Bu üzdən su başında, yolda daha çox görünər. Xalq inanışlarında Xızırı görmək böyük səadət sayılıbdır. Qoruyucu, hami ruh olan Xızır türk etnik-mədəni ənənəsində "övliya", "ərən" anlayışı olunan mifoloji varlıqların ölçülərinə daha uyğun gəlir.

Türk inanışlarındakı həqiqi övliya tipi Qorqud Atanın simasında öz parlaq təcəssümünü tapıbdır. Türküstan baxşılarının, adına «Ata Qorqut Övliya» dedikləri ulu əcdad ruhu Dədə Qorqud həqiqətən də övliya olduğu üçün «Dədə Qorqud kitabı»nda onun haqqında «vilayət issi» deyilir. Əcdad ruhuna tapınmağın bir ifadəsi olan Qorqud Ata qopuzlu baxşıların yardım dilədikləri bir övliyadır. Qorqud Ata da bir övliya olaraq ənənəvi türk düşüncəsində qeyb aləmi ilə bağlıdır; dedikləri çin olan övliya Qorqud Ata qeybdən, gözəgörünməzlər dünyasından dürlü-dürlü xəbərlər söyləyir. Çünki Haqq təalanın könlünə ilham etdiyi bir övliya, bir kəramət sahibidir.

Qorqut Atanın məzarlığının bir neçə yerdə olması həmin müqəddəs bilinən varlıqların (ruhunun) bəlalardan qoruyucu, hifzedici hami olduqlarına inamdan gəlir.

Ata bəlalardan qoruyan, hifz eləyən ruhdur. Türk etnik-mədəni ənənəsində mifoloji zəmində təşəkkül tapan və mədəni qəhrəman, ilkin əcdad, eləcə də mərasim hamisi olaraq səciyyələndirilə bilən Qorqut Ata bu adla birgə anılır. «Ğayibdən dürlü xəbərlər söyləyən, Haq-təalanın könlünə ilham etdiyi» övliya Qorqud Ata özü də bir dədədir.

Qazax əfsanə və rəvayətlərinə görə, Qorqudun qeybdən - gələcəkdən xəbər vermək qüdrəti vardı; o həmçinin dönərgəliyin sirlərini bilmişdir; onda sehirkarlıq qüdrəti olmuşdur. Xorxut həm də xəstəliklərdən, azar-bezardan qoruyan ulu ruhdur. Baxşılar: «Səslədiyim zaman gəl, pirim!» - deyə bəlalardan qoruyan bu hami əcdad ruhunu köməyə çağırardılar.

Qorqut Ata həm də bir mədəni qəhrəman, demiurq, mədəni aktın ilk yaradıcısı və ilk icra edənidir. Azərbaycan türkləri arasında qeydə alınan bir xalq inamına görə, dünyada hər nə varsa hamısına adı Qorqud Ata vermişdir. İgidlərə «ər adı» verən Qorqut Atanın hər nəsnəyə ad verməsi onu əsasında söz dayanan məna aləminin yaradıcısı olaraq görmək imkanı verir. Şaman dualarında onun haqqında: «...Su ayağı ər Qorqut // Bəlaları sən qorxut // Baxşılar piri sən deyilmisən?!».

Ulu varlıq haqqında baxşılar: «Ölü desəm ölü deyil // Diri desəm diri deyil Ata Qorqut övliya» - deyildilər ki, bu sözlərlə sonralar həmçinin ilk şaman obrazlarına transformasiya olunan Göy oğullarının ölməzliyinə də işarə edilmişdir. Öldükdən sonra Qorqut Atanın qəbrinin ziyarət yeri olmağı və bura ziyarətə gələnləri sağaltmağı da onun hami şaman ruhu olduğunun sübutudur. Türk etnik-mədəni ənənəsində kosmik düzənin dağılması haqqında esxatoloji modellə bağlı fikirlər də ilk ozan, baxşılar piri, eyni zamanda gələcəyi bilən, qeybdən xəbər verən böyük şaman və övliya Qorqutun adı ilə əlaqələndirilir.

Koroğluda ilkin əcdad, mədəni qəhrəman və ya demiurq funksiyası ilə bağlayan cizgilər aydın seçilir və həmin cizgilər Koroğlunu birbaşa mif dünyasına bağlayır. Koroğlu «genezis etibarilə mədəni qəhrəman - demiurq obrazının epik transformasiyasıdır. Mədəni qəhrəman obrazı isə bir neçə ipostasda çıxış edir: ilkin yaradıcı, tanrı, demiurq, trikster və s. Etnik-mədəni sistemin nisbətən dərin

strukturlarında Koroğlu qurdun ekvivalentidir; onlar qarşılıqlı şəkildə əvəz olunurlar, hər ikisi mədəni qəhrəmandır.

Etnik-mədəni ənənədə Boz Qurd kimi və məhz onun yeni şəkli olaraq Koroğlu pozulmuş düzəni nizama salmaqçün gəlir. Hər ikisinin xilaskarlığı mifik əcdad olmalarındandır. Bu obrazların ikisi də biri-birinə bağlılıqdadır, ona görə də ekvivalent olub biri digərini qarşılıqlı əvəz edə bilir.

O, möcüzəli şəkildə gorda doğulur, ölmüş anasının döşünü əmərək böyüyür və s. Belə bir doğuluş aktı onun mifoloji Yer Ana ilə bağlı olduğunu göstərir. Türkmən «Goroğlu»sunun bir variantında Koroğlu (Goroğlu)nu dünyaya dağ gətirir ki, bu semantik kod da Koroğlunun dağ ruhundan doğulduğuna birbaşa işarədir.

Koroğlu həm də təbiətin ölüb dirilməsini rəmzləndirir. Göy oğlu ölüb-dirilən Koroğlunun möcüzəli doğuluşu dastanın Orta Asiya variantlarında qorunmuşdur. Koroğlu obrazı öz kökü etibarilə keçid - inisiasiya mərasimlərinə bağlanır. Türkmən «Goroğlu»su həmin mərasimin elementlərini qoruyub saxlamışdır. Türkmən «Koroğlu»suna görə, babası gorda doğulan gələcək qəhrəmanı alıb yurda gətirdiyi zaman övliya Xızır ağ-çal saqqallı qoca görkəmində gəlib əlini üç dəfə uşağın kürəyinə çəkir, üç kərə də ağzına üfürərək: «Bizim Nəfəs oğlumuz olsun!» - deyir.

Gorda doğulduğu üçün ona «Goroğlu» adının verilməsi, zahiri yozum görünüşü təsiri bağışlasa da, onun gorda və deməli, dolayısıyla o biri dünyada, yeraltı ölülər səltənətində olduğunun işarəsi kimi yozula bilər. Goroğlunun gorda doğulmağı bir motiv kimi inisiasiya aktında yenidən doğulma hadisəsi ilə də üst-üstə düşür.

Türk xalqları əfsanələrində quşların, heyvanların dilini mifoloji Goroğluya Xızır peyğəmbərin və qırxların öyrətmiş olduğu göstərilir. Koroğlunun Balkan dağlarında olduğuna inanılan müqəddəs məzarı isə guya azarlıları sağaldar, dərdlilərə şəfa verərmiş. Onun eləcə də Məşhəddə və s. olduğu göstərilən məzarı Xızırın, Qorqudun məzarlarının varlığı qədər «gerçək» olub, bəlalardan qoruyucu ruhun maddi qavranmasıyla bağlıdır. Əsasən türkmən boylarının qoruyub saxladığı Goroğlu - Qöroqlı da əslində Yerin oğludur; yeraltı qaranlıq dünyadan (gordan) doğulandır.

Koroğlu yeni mədəniyyət çevrəsində haqqı tapdalanmış köçəbə türkmanların intiqamını alan bir ələvi dərvişi kimi səciyyələndirilir. Koroğlunun ərənliyi, ona vergi verilməyi, onun haqq aşıqlığı, yenilməzliyi və sakral sfera ilə bağlılığı xilaskar Göy oğlu obrazının təsəvvüf qatındakı görünüşüdür.

**İş «D»: «Peşəkar təhkiyəçilik ənənəsinin epik janrlarda özünəməxsusluğu»**

İcraçı: **dosent K.F.İslamzadə**

Mərhələ III: « Folklordakı bəzi rəmzlərin etnoqrafik mənşəyi »

Folklorla etnoqrafiya arasında sıx əlaqənin olması folklorşünaslıq elminin yarandığı ilk dövrdən bəllidir. Folklorda əksini tapmış əksər rəmzlərin açar kodu məhz mərasim gerçəkliyində gizlənmişdir. Elmi işdə folklor mətnlərində ifadəsini tapan real və qeyri-real obrazlar, bəzi əşya və fəaliyyətlər etnoqrafik materiallara söykənməklə şərh olunmuşdur. Rəmzlərin açıqlanması göstərir ki, onların semantikası bir çox xalqlar (o cümlədən qohum olmayan xalqlar) üçün eyni və ya yaxındır, başqa sözlə, tipoloji xarakter daşıyır. Məhz bu səbəbdən də tədqiqat zamanı yalnız milli folklorumuzun sərhədlərində deyil, daha geniş miqyasda, başqa xalqların ağız ədəbiyyatı örnəklərini cəlb etməklə iş aparılmışdır.

Elmi işdə «övladlığa götürmə» aktının uyğun mərasim, fəaliyyətlər kompleksi və dualarla müşayiət olunduğu bildirilir. «Övladlığa götürmə»nin «köynəkdən keçirmə», «qadının və ya inəyin ayaqları arasından keçirmə», «baldır sümüyü vermə», «ağzına tüpürmə» kimi hərəkətlərlə icra olunduğu təsvir edilir. Həmin hərəkətlərdə, adətən doğuş aktının, əmizdirmə prosesinin imitasiya olunduğu və rəmzləşdirildiyi diqqətə çatdırılır.

Bundan başqa «ögey ana» süjetinin rus və Avropa xalqları nağıllarında təzahür edən variantlarında əsas qəhrəman olan qızın adında «kül»lə, «his»lə bağlılığın rəmzi xarakteri açıqlanır. Həmin süjetdəki «saç» elementi də məhrəmliyi, doğmalığı ifadə edən bir rəmz kimi təhlil edilir.

Elmi işdə həmçinin müxtəlif xalqların folklorundakı təkgözlü obrazlarının timsalında yeganə gözün ifadə etdiyi rəmzi mənalar əsaslandırılır. Qeyd olunur ki,

Misir panteonunda səma və Günəş tanrısı Qorun gözü və ya «hər şeyi Görən Göz» adlanan, üçbucaqlı içərisində tək göz kimi təsvir edilən işarə sonradan bir çox mədəniyyətlərə, eləcə də xristianlığa keçmiş, bəzi hakimiyyət və təşkilatların simvoluna çevrilmişdir. Qədim dövrlərdən «Hər şeyi Görən Göz» insan nəslinin və bütün kainatın yaradıcısının gücünü və biliyini rəmzləşdirir. Bu, insanın fövqündə duran, tək, bölünməz və azad abstrakt nəsnədir. O, maddi dünyada müvəqqəti səyahət edən bədənlərdə həbs olunmuş ruhlara nəzarəti həyata keçirir. Eyni zamanda o, susqun müşahidəçi kimi insanın bütün hərəkətlərinə baxır ki, həyatı sona çatdıqda onu dəyərincə qiymətləndirə bilsin. Burada Ay və Günəş astral elementlərinin də folklordakı rəmzi semantikası ətraflı şərh olunur.

**İş «E»: «Kitabi-Dədə Qorqud»un şifahi nitqdən yazıya keçməsi və ilkin mətnlər»**

İcraçı: **professor əvəzi Ü.A.Nəbiyeva**

Mərhələ III: « Folklordakı bəzi rəmzlərin etnoqrafik mənşəyi »

«Kitabi-Dədə Qorqud» eposu sübut edir ki, oğuz-səlcuqların orta əsrlər üçün həqiqətən ideal dövlət quruculuğu təcrübəsi olmuşdur. Oğuz cəmiyyətində köçəriliyin əlamətlərinə də rast gəlinir, lakin mükəmməl (və elastik!) idarəçilik iyerarxiyası dövlətin dağılmasına qətiyyən imkan vermir .

Ümumiyyətlə, Azərbaycanda aşağıdakı dövlətçilik mədəniyyətlərinin mövcud olması göstərilir:

1. Qədim (ümum) türk (hun-qıpçaq) dövlətçilik mədəniyyəti.
2. Türk-müsəlman (oğuz-səlcuq) dövlətçilik mədəniyyəti

Tarixdən məlumdur ki, Bayandur xan Oğuz xan nəslindəndir. İlk qəbilə ittifaqına başçılıq etmişdi. Eposda oğuz qəbilə birləşmələri qrupu təsvir olunur. Onlar Üç-oq, və Boz-oq kimi iki yerə ayrılır. Müvafiq olaraq İç və Taş oğuzlar kimi də təqdim edilir. Bayandur xan İç və Taş Oğuz arasında qarşılıqlı əlaqə quraraq Oğuzu birləşdirə bilir. Bu idarəçilik icma dövrünün ən demokratik idarə forması olub, dövrünə görə əhəmiyyətli mövqe nümayiş etdirmiş, bütövlükdə oğuz mədəniyyətinin

inkişafına böyük tarixi kəsimdə mühüm kömək göstərmişdi.

Eposda iki oğuz tayfasının birləşdiyini, bu birliyin başında isə Bayandur xanın dayandığını görürük. Bayandur xan vaxtaşırı məclis düzəldir, bəyləri dəvət edir, ölkə idarəçiliyinin müxtəlif məsələləri burada müzakirə olunur. Xanın idarəedicilik təşəbbüsləri burada bəyan edilir. Lakin bununla yanaşı, Qam Ğan oğlı xan, xanlar xanı və başqa titullarla şəxsləndirilən Bayandur xan eposda ümumilikdə az görünür. Başlıca idarəedici isə Bayandur xanın yaxın köməkçisi, xanlığın ikinci şəxsi «Ulaş oğlı Tüklü quşun yavrısı, bizə miskin umudı, Amit soyının aslanı, Qaracuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygisi, Qalın Oğuzın dövləti, qalmış yigit arxası» Qazan bəydir. Oğuz tayfa idarəçiliyi formasına fikir verdikdə görmək olur ki, bu xaqanlıq idarəçiliyi formasıdır. Həmin birlikdə 24 oğuz tayfası cəmləşmişdir. Bayandur xanın məclisində iştirak edən tayfalara daxil olan başçılar var və hər bir tayfa başçısı xanın məclisində iştirak edir. Tayfa başçıları müstəqildir. Lakin bu müstəqillik onların öz qövmü daxilindədir. Onlar qonşu elə hücum etməkdə, ova çıxmaqda, kafirlərlə münasibətdə xanlığın mövqeyindən çıxış etməlidir. Əgər hansısa tayfa bir qərar qəbul etmək istəyirsə, mütləq Bayandur xana müraciət etməlidir. Ən azı isə Qazan bəyi xəbərdar etməli, ondan icazə almalıdır. Tayfalararası və tayfadaxili münasibətlər qarşılıqlı yardım prinsipi və Bayandur xanın ali hakimiyyətinə tabelik əsasında qurulmuşdur. Qarşılıqlı kömək və yardım münasibətləri boylarda qabarıq tərənnüm edilir. Buna «Salur Qazanın evi yağmalandığı boyı bəyan edər» misal ola bilər. Bu boyda Qazan elinə hücum edən tayfaya münasibət birmənalı deyildir. Azərbaycan, eləcə də bəzi türk tədqiqatçıları bunu qonşuluqda yaşayan və oğuzlarla düşmənçilik münasibətində olan kafirlərin adı ilə bağlayırlar. Əbülqaziyə görə, bu yağmalanmanın səbəbkarı qonşu kafir tayfalar yox, peçeneqlərdir. Bu mülahizə eposun tanınmış tədqiqatçısı V.M.Jirmunski tərəfindən təsdiqlənir və müdafiə edilir. Hesab edirik ki, həmin dövrdə peçeneqlər oğuzlardan xeyli uzaqda idi və bizə gəlib çatan bir sıra məlumatlara görə, onların oğuzlarla düşmənçilik münasibətləri hələ kəskinləşməmişdi. V.M.Jirmunski türklərin tarixi yerləşməsi və işğalları ilə bağlı faktlara əsaslanıb bu yağmalanmada peçeneq

izini irəli çəkir. Bütün bu mülahizələrə onu da əlavə etmək lazımdır ki, Qazan bəyin evinin düşmən tərəfindən yağmalanması oğuz idarəçiliyinə son qoymaq, yaxud onu əsaslı şəkildə sarsıtmaq məqsədi daşıyırdı. Hücum edən düşmənin adı da aydın idi. Bu, Oğuz elinin başlıca düşmənlərindən olan Şöklü Məlik idi. Qazan – Şöklü Məlik qarşıdurması oğuz xaqanlıq idarəçiliyinin sınağı idi.

İç Oğuz və Taş Oğuz tayfalarının Bayandır xana tabeliyində dövlətçiliyin zəif də olsa formalaşma prinsipləri vardır. Belə ki, tayfa hakimiyyətinə daxil olan 24 oğuz tayfasından hər birinə yalnız xanlar xanı Bayandır xanın fərman verməsi, əmr etmək hüququ təsdiq edilməmişdir. Daha doğrusu, 24 tayfa başçısı razılığa gəlmişlər ki, xanlıqda yalnız Bayandır xan fərman verə bilər, xanlığa daxil olan bütün tayfaların başçıları isə ona tabedirlər. Lakin bununla belə, tayfa başçıları olan bəylər tam sərbəstdir, xanın qadağa çərçivəsindən çıxmamaqla onlar öz qəbilə və ya tayfalarında müstəqildir. Lakin bütün bunlarla yanaşı, onlar xanlar xanı Bayandır xanın və ya Salur Qazanın iradəsinə tabe idilər. Qam Ğan oğlu Bayandır xanın buyruqları oğuzda mütləq qayda-qanunlar sistemini təşkil edir. İstər onun ildə bir dəfə şadlıq edib oğuz bəylərini qonaq etməsi, atdan, ayğır, dəvədən buğra, qoyundan qoç qırdırıb bir yerdə ağ otaq, bir yerdə qırmızı otaq, bir yerdə qara otaq qurdurması, bununla da oğuzun övladsız şəxslərinin həm Tanrı, həm də onun özü tərəfindən bir növ cəzalandırılması, övladlılara isə diqqət və ehtiramını bildirməsi, Bayandır xanın bir yazda, bir də payızda buğa ilə buğrasını savaşdırması (Dirsə xan oğlu Buğac boyu), tamaşa təşkil edib gəncləri sınağa çəkməsi, bəylərin ondan qoşun istəməsi və xanın iyirmi dörd vilayətin pəhləvan bəylərindən ibarət kömək – qoşun dəstəsi göndərməsi (Qazılıq qoca oğlu Yeynək boyu), qonşu ellərdən xərac gələrkən onu bəylərə paylaması Bayandır xanın oğuzda böyük nüfuz sahibi olmasınından xəbər verir.

Oğuz elində idarəçilikdə azadlıq vardır. Bayandır xana, eləcə də öz tayfasına məhəbbət oğuzlar içərisində genişdir. Burada oturaq həyata keçid əlamətləri güclüdür. Tayfanın güzəranının yaxşılaşması, əkin-biçin işlərinin genişləndirilməsi üçün mərkəzi idarəçilikdən tədbirlərin görülməsi nəzərə çarpmır. Ayrı-ayrı igidlərin söyləmələrində ilxı, sürü, dəvələr, çöl-çayırın vəsfindən görünür ki, oğuz eli maldar

görüşlərinə daha çox tabedir. Xanlıqda idarəçilik və dövlətçilik tələblərinin möhkəmləndirilməsinə elə meyl göstərildiyi nəzərə çarpmır. Əksinə, xanlığı möhkəmləndirmək tədbirləri əvəzinə, eposda ayrı-ayrı qəhrəmanlar, onların taleyi, qalada dustaq olmaları, yaxud doğmaları tərəfindən xilas olması üçün xan Bayandırın razılığı ilə görülən tədbirlər üstünlük təşkil edir. Yaxud eposda düşmən tayfaların hücumu, tayfalararası münasibətlər, onların kəskinləşməsi və tənzimlənməsi daha çox görüntü yaradır. Amma bütün bunlara baxmayaraq, «Kitabi-Dədə Qorqud»da oğuz dövləti və onun idarəçilik nümunəsi bütün görünən və görünməyən cəhətləri ilə özünü göstərir ki, bunun da ayrıca tədqiqinə ehtiyac vardır.

Epik yaddaşda yaşayan oğuz dövlətçiliyi və idarəciliyinin müxtəlif ənənələri türk eposunda sonralar da ayrı-ayrı formalarda yaşamışdır. Bu isə ümumilikdə türk xalqlarının qədim idarəçilik ənənələrini öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir.

**İş «Ə»: «Kitabi-Dədə Qorqud» un öyrənilmə tarixi**

İcraçı: **fil.f.d. K.K.Həsənova**

Mərhələ III: « Dastanda ənənəvi süjetlər »

Dünya miqyasında tədqiq edilən ədəbi abidələrdən biri "Kitabi-Dədə Qorqud"dur. Bu tədqiq və araşdırmanın 200 ildən artıq bir tarixi vardır.

«Kitabi-Dədə Qorqud»da erkən təsəvvür və etiqadlarla bağlı süjetlərlə yanaşı, dünya eposçuluğu və ənənəvi dastan süjetlərindən istifadə də özünü göstərir. «Kitabi-Dədə Qorqud» qəhrəmanlığının epikləşməsində təkcə milli etiqad və təsəvvürlərlə bağlı süjetlər deyil, epik düşüncə üçün ənənəvi olan süjetlər də iştirak etmişdir. Onların bir qismi dünyəvi süjetlərdir. Dünya epik ənənəsində yaranıb bütün insanlıq üçün eyni və ya qismən fərqli xüsusiyyətlərlə seçilənlərdir. Bu tip süjetlərin dünya epik düşüncəsindən gəlməsi şəksizdir. İkinci qism isə bilavasitə türk dastançılığında yayılan və ənənəvi xüsusiyyətləri ilə seçilənlərdir. Onlar eposa pərakəndə şəkildə yayılmamışdır. Dünyəvi süjetlərlə ənənəvilər arasında sıx bir vəhdət vardır. Onlar yeri gələndə bir-birindən tamam fərqli hadisələri, epizodları, əhvalatları eposa gətirir.

Bu süjetlər quruluşuna görə mürəkkəb xarakterlidir. Bəzən bütün hadisələr həmin mürəkkəb süjetin üzərində yaranıb inkişaf edir, yeni epizodlar, hadisələr, əhvalatlarla zənginləşir, maraqlı kompozisiya quruluşu yaradır.

Dastan yaradıcılığı üçün ənənəvi süjetlər isə türk dastançılığının geniş yayılmış epik ənənəsində özünü tez-tez təkrarlayan, müxtəlif rekonstruksiyalara məruz qalan süjetlərdir. Onlar müxtəlif motivlərə ayrılır, yaxud müxtəlif motivlərin məcmusundan yaranır. Qeyri-adi hadisə, əhvalat, vaqeələrlə əlamətdar olur. Milli eposçuluq ənənəsi əsasında yaranır və ayrı-ayrı türk dastançılıq ənənələrində özünü göstərir. Qəhrəmanlıq dastanlarımıza diqqət yetirsək bu süjetlərin səpələnməsinin özünəməxsus spesifik xüsusiyyətlərə malik olduğunu görərik. Yəni istər dünya eposundan gəlmə, istərsə türk dastançılığı üçün ənənəvi süjetlərin «Kitabi-Dədə Qorqud»da sistemli düzümü vardır. Onlar istər eposda, istərsə də ayrı-ayrı boylarda nizamlı düzümdədir. Tədqiqat işi bu istiqamətdə ümumiləşdirilmişdir.

## 4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI.

Dərc olunmuş elmi işlərin (məqalə, tezis), monoqrafiyaların, dərslik və dərs vəsaitləri haqqında məlumat

**Kitablar:**

**Dosent E.Ə.Talıblı:**

1. Orfoqrafiya-orfoepiya lüğəti. Təkmilləşdirilmiş VII nəşr. Bakı, DİM nəşri, 2017, 224 səh, 14 ç.v. (həmmüəlliflərlə birlikdə)

**Rəsmi opponentlik:**

**Prof. S.H.Orucova:**

1. Şəbnəm Nizami qızı Məmmədova. “Azərbaycan-qaraqalpaq folklor əlaqələri”. Filologiya (5719.01 – “Folklorşünaslıq) üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı, 2017

**Prof.N.Q.Xəlilov:**

1. Altay Ələddin oğlu Məmmədov. "Göyçəli aşıq Nəcəfin həyat və yaradıcılığı". Filologiya (5719.01 – "Folklorşünaslıq) üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı, 2017

**Dosent E.Ə.Talıblı:**

**1.** Kəmalə İsmayılova "Şah İsmayıl" dastanının variantları". Filologiya (5719.01 – "Folklorşünaslıq) üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı, 2017

**Dos.M.M.Məmmədov:**

**1.** Rəhilə Soltan qızı Səfərəliyeva. "Azərbaycan xalq dastanlarında qəhrəman tipləri". Filologiya (5719.01 – "Folklorşünaslıq) üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı, 2017

**Məqalələr:**

**Prof. S.H.Orucova:**

1. Мультикультурализм- историческое достояние Азербайджанского народа //Bakı Universitetinin xəbərləri (humanitar elmlər seriyası) 2016, №3, s.68-75 0, 4 ç.v.
2. Folklor materiallarındakı antropoloji leksikanın tərcümə prosesi. Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş «Akademik Ağamusa Axundov və Azərbaycan filologiyası» mövzusunda Beynəlxalq Elmi Konfransın konfransının materialları.Bakı, 2017, s.88-91
3. İrəvan şəhəri – toponim və etnonimi folklor materialı kimi. Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş "M.P.Vaqif və müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017, s.175-178

4. Qədim sənət növü-xalçaçılıq və naxış elementləri// “Folklorşünaslıq” elmi-nəzəri jurnalı, 1/2017, səh.3-5

5. Жанр дастан у тюркоязычных народов // Dil və ədəbiyyat (beynəlxalq elmi-nəzəri jurnal). Bakı, 2017, №4(104), 0, 5 ç.v.

6. Жанры Азербайджанского фольклора на русском языке// “Filologiya məsələləri”-çapdadır

## Professor N.Q.Xəlilov:

**1.** Səmimi insan, yaxşı dost. Elxan ömrü, saz ömrü. (E.Məmmədli - 70) Bakı, 2016.

2. Bir daha heca vəzni və aşıq yaradıcılığının yaranma tarixinə dair. «Folklorşünaslıq» elmi-nəzəri jurnal. Bakı, «Araz» nəşriyyatı, 2017, s.10-17

**3.** Nəsimi və aşıq poeziyası. Ey Nəsimi, cahanı tutdu sözün… Nəsimi 600, Bakı, 2017.

**4.** Hüseyn Cavid yaradıcılığında məhəbbət və qadın. H.Cavidin sənət fəlsəfəsi (H.Cavid - 135) , .Bakı, 2017.

**5.** Xanım-xatın Əzizə Cəfərzadə. «Beytus-səfa» davamçıları, .2017, № 6

**6.** Yusif müəllim sağ olsaydı. Ulduz ömürlü insan / «Elm və həyat» 2017

**7.** Vaqif yaradıcılığında aşıq poeziyasının yeni mərhələsi və şairin aşıq йарадыъылыьына тясири. М.П.Вагиф – 300, Бакы. 2017. S.17-22

## Dosent E.Ə.Talıblı

1.Test tapşırığı nümunələri. Azərbaycan dili (I və IV ixtisas qrupları üçün). - “Abituriyent”, jurnalı, 2017, №1, s.98-100

2. “Açıq kitab”ın oxunmamış səhifələri // “Folklorşünaslıq” elmi-nəzəri jurnalı, 1/2017, səh.41-50

**Dosent M.M.Məmmədov:**

1. Əski türk dini və şamanizm // "Dil və ədəbiyyat" jurnalı, №4 (104) çapdadır
2. "Əzizə Cəfərzadə Novruz bayramının gözəl bilicisi kimi" // "Beytüs-səfa davamçıları" jurnalı, №

**Dosent K.F.İslamzadə:**

1.Süjet haqqında təlim.//Bakı Universitetinin xəbərləri (humanitar elmlər seriyası) 2016, №3, s.48-53, 04 ç.v.

2.Beynəlxalq nağıl süjetlərinin sistemləşdirilməsinə dair. //Dil və ədəbiyyat (beynəlxalq elmi-nəzəri jurnal). Bakı, 2017, №1 (101), s.210-213, 0, 5 ç.v.

3.Dünya xalqlarının mifoloji və folklor süjetlərində təkgözlü obrazlar. //Filologiya məsələləri. Bakı: Elm və təhsil, 2017, №11, s.347-356, 07, ç.v.

4. Təpəgöz süjetinin Oğuz versiyası: motivlərin etnopsixoloji təhlili. //Filologiya məsələləri. Bakı: Elm və Təhsil, 2017, №12, s.291-299, 07 ç.v.

5. Təpəgöz süjetinin əsas motivi – qəhrəman – azman qarşıdurması.// Filologiya məsələləri. Bakı: Elm və təhsil, 2017, №14, s.319-328, 07 ç.v.

6. «Övladlığa götürmə» ənənəvi motivinin mərasim kompleksində yeri// «Molla Pənah Vaqif və müasirlik» mövzusunda Respublika Elmi-Praktik konfransının materialları. BDU, s. 119-121, 0, 5 ç.v.

**Dosent Ü.A.Nəbiyeva:**

1. Xalq oyunları sivil dəyərlərin etnoloji təzahürüdür. / Molla Pənah Vaqifin 300 illiyinə həsr olunmuş Respublika elmi konfransının materialları/. Bakı: 2017, s. 70-77
2. Novruz İslam Həmrəyliyinin ulu qaynağıdır . "Filologiya məsələləri",- Elmi - nəzəri jurnal, № 14 , Bakı: "Elm və Təhsil", 2017, s.397-405

3. Çillələr Novruza hazırlıq mərhələsidir. “Filologiya məsələləri” –Elmi- nəzəri jurnal №5, Bakı: ”Elm və təhsil”, 2017 , s. 56-72

**Fil.f.d. K.K.Həsənova:**

**1.** Эпическая и мифическая характеристика Дели Домрула в «Китаби-Деде Коркуд» “Folklorşünaslıq” elmi-nəzəri jurnalı, 1/2017, səh.41-50

**Kitablara rəy:**

**Prof. S.H.Orucova:**

**1.** Koblandı-Batır. Qazax xalq qəhrəmanlıq dastanı. (Tərcümə edən: Nizami Məmmədov-Tağısoy), “Elm və təhsil”, 2017, 316 səh.

**Dos.E.Ə.Talıblı:**

1. Möhsün Nəzərli. Şeirlər (Kərbəla), Bakı, 2017
2. “Koroğlu”(Vəli Xuluflu nəşri) Bakı: “TOFİQ- M” , 2017, 180 s.

**Fil.e.d. Ü.A.Nəbiyeva:**

1. Yeganə Nemətulla qızı İsmayılova. 1.Gürcüstan- ahıska türklərindən “Koroğlu” dastanı. (Vəli Xuluflu nəşri) Bakı: BDU nəşri, 2017, 43 s.;
2. “Koroğlu”(Vəli Xuluflu nəşri) Bakı: “TOFİQ- M” , 2017, 180 s.

## 5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ:

5.1. Respublikadaxili qrantlar – yoxdur 5.2. Beynəlxalq qrantlar – yoxdur

## 6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR

Kafedra üzvləri AMEA-nın tədbirlərində fəal iştirak edir. Prof.S.H.Orucova AMEA-da Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş «Akademik Ağamusa Axundov və Azərbaycan filologiyası» mövzusunda Beynəlxalq Elmi Konfransında iştirak etmişdir. Kafedranın müdiri prof. S.H.Orucova AMEA-nın Folklor İnstitutunun Müdafiə Şurasının, fil.f.d.K.K.Həsənova Seminar Şurasının üzvüdür.

## 7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.

*7.1.Elmi-texniki əməkdaşlıq.*

Azərbaycan Şifahi xalq ədəbiyyatı kafedrasının Qırğızıstan Elmlər Akademiyası və Qırğızıstan Dövlət Universiteti ilə birgə elmi fəaliyyəti mövcuddur. Belə ki, Kafedranın doktorantı Jalə Xəlilovanın ikinci elmi rəhbəri Qırğızıstan Respublikası Elmlər Akademiyasının vitse prezidenti və Dil və Ədəbiyyat İnstitutunun direktoru A.Akmataliyev, dissertantı Gülarə Quluzadənin ikinci elmi rəhbəri Qırğızıstan Dövlət Universitetinin professoru Jıldız Kalmaşevna Orozobekovadır. Türkiyənin Xalq Mədəniyyəti Araşdırmaları Qurumunun sədri, professor İrfan Nəsrəddinoğlu dissertant Gülnar Axundovanın ikinci elmi rəhbəridir. Rusiyadan professor Uldanay Baxtikiriyeva Özbəkistan Elmlər Akademiyası Dil və Ədəbiyyat İnstitutunun direktoru professor Tura Mirzoyev, Gürcüstan Ədəbiyyat İnstitutunun direktoru professor İrma Ratiani, "Milli folklor" jurnalının baş redaktoru professor Ocal Oğuz, Türkoloji Araşdırmalar Mərkəzinin müdiri fil.f.d. Seyfəddin Altaylı ilə də elmi əlaqələr qurulmuşdur. Onlar kafedranın nəzdində nəşr olunan "Folklorşünaslıq" jurnalının redaksiya heyətinin üzvləridir.

*7.2. Beynəlxalq konfranslarda, konqreslərdə və simpoziumlarda iştirak:*

Prof. S.H.Orucova 28 fevralda Bakıda Yunis Emre merkezi ilə Bakı Dövlət Universitetinin birgə keçirtdiyi «Korkud Atatdan günümüze aşıklık geleneyi»

Beynəlxalq elmi konfransında və 22-26 mayda Ankarada keçirilmiş VIII Uluslararası Türk dil qurultayında oturum başqanı olmuşdur.

Professor Nizami Xəlilov 3 beynəlxalq simpozium və konfranslarda iştirak etmişdir.

Dosent Etibar Talıblı Qarsda keçirilmiş I Uluslararası Kafkasiya Xalq Kültürü konqresində "İki Fıkra Kahramanı: Nasreddin Hoca Ve Hacı Dayı (Azerbaycan Fıkraları Esasında)" adlı məruzə ilə çıxış etmişdir.

Dosent Məhəmməd Məmmədov 4 beynəlxalq- 22-26 mayda Ankarada keçirilmiş VIII Uluslararası Türk dil qurultayında, 14-16 iyun Astanada keçirilmiş "Tanrıçılıq və Avrasiya xalqlarının epik irsi: qaynaqlar və müasirlik" adlı VI beynəlxalq elmi-praktik konfransda (qiyabi), 09-11 oktyabr Qarsda keçirilmiş I Uluslararası Kafkasiya Xalq Kültürü konqresində, 12-14 oktyabr 5. Uluslararası Xalq Kültürü və Sənət Etkinlikləri simpoziyumunda məruzə ilə çıxış etmişdir.

**Prof. S.H.Orucova:**

1. Azerbaycan ağız edebiyyatının SMOMPK mecmuasında Rusçaya çeviri konusu. 22-26 mayda Ankarada keçirilmiş VIII Uluslararası Türk dil qurultayı
2. Bakıda Yunis Emre merkezi ilə Bakı Dövlət Universitetinin birgə keçirtdiyi «Korkud Atatdan günümüze aşıklık geleneyi»

**Professor N.Q.Xəlilov:**

1. H.Cavid yaradıcılığında qadına münasibət. Türkiyə, Amasiya, Beynalxalq simpozium., 2017

**Dosent E.Ə.Talıblı:**

1. İki Fıkra Kahramanı: Nasreddin Hoca Ve Hacı Dayı (Azerbaycan Fıkraları Esasında) // I Uluslararası Kafkasya Halk Kültürü Kongresi (9-11 ekim 2017, Kars, Türkiye)

**Dosent M.M.Məmmədov:**

1. Смерть и воскресение в тенгрианстве и шаманизме // Сборник статей VI-й Международной научно- практической конференции «Тенгрианство и эпическое наследие нарадов Евразии: Истоки и собременность» (14-16 июнь 2017 г.,Астана , Казахстан. с.248-251

2. Türk etnik-kültürel geleneğinde Tanrı"yı sembolize eden kavramlar // VIII Uluslararası Türk Dili kurultayı. Bildiri Özetleri, 22-26 Mayıs 2017, Ankara, Türkiye, s.258.

3. Türk mitolojik düşüncesinde şamanizm // 5. Uluslararası Halq Kültürü ve Senet Etkinlikleri.12-14 Ekim,2017 Kahramankazan / Ankara/Türkiye. Özet Kitapçığı, s.292-296.

"Türk mitolojik düşüncesinde kılıç kultu" // I Uluslararası Kafkasiya Halk Kültürü Kongresi, 9-11 Ekim 2017, Kars, Türkiye

## 8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

*8.1. Dövlət və özəl strukturlarda tətbiq olunmuş elmi nəticələr:*

Professor S.H.Orucovanın "Azərbaycan folklorunun rus dilinə tərcümə probleminin özünəməxsusluğu" adlı kitabı bakalavr təhsil pilləsinin "Azərbaycan şifahi xalq ədəbiyyatı" fənninin rus bölmələrində tədrisində, eyni zamanda "Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri" kitabı bakalavr və magistratura pilləsində dərs vəsaiti kimi istifadə olunur. Professor S.H.Orucovanın elmi redaktorluğu ilə çap olunan "Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü" mövzusunda Respublika elmi konfransının materialları və "Kitabi-Dədə Qorqud və Türk dünyası" mövzusunda Beynəlxalq elmi konfransın materialları, "Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının Elmi seminarları (2016-2017)" məcmuəsi magistratura təhsil pilləsində istifadə olunur. Professor N.Q.Xəlilovun "Heca vəzni və aşıq sənətinin yaranma tarixi" və fil.e.d. Ü.A.Nəbiyevanın Türk epik ənənəsində "Dədə Qorqud" kitablarından filologiya fakültəsinin magistr təhsil pilləsinin "Azərbaycan aşıq yaradıcılığı", "Kitabi-Dədə

Qorqud" və dünya eposu", "Azərbaycan aşıq şeirinin növ və şəkilləri" və bakalavr təhsil pilləsinin "Azərbaycan dastanları" fənlərinin tədrisində dərs vəsaiti kimi istifadə olunur.

*8.2. Təhsildə elmi-tədqiqat işlərinin nəticələrinin və informasiya texnologiyasının tətbiqi. Elmi-tədqiqat işlərinin səmərəliliyi:*

Elmi-tədqiqat işlərinin nəticələrindən isə magistratura bölməsində mühazirə mətnləri və dərs vəsaitləri kimi istifadə olunur.

*8.3. İstehsalatda tətbiq üçün hazır olan texnologiyalar haqqında məlumat – yoxdur.*

**9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ –** yoxdur.

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI:**

10.1 «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı»:

Kafedrada icra olunan elmi işlər və müdafiə üçün hazırlanan fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları 2016-2020-ci illərdə Elmin İnkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının yerinə yetirilməsi istiqamətində verilən töhfələrdir. Bu işlərin əhatə etdiyi mövzular folklorşünaslıqda ağ ləkələrin yerinin doldurulmasına, aktual problemlərin tədqiqata cəlb olunmasına hesablanmışdır. Dövlətin yürütdüyü mədəniyyətlərarası dialoq, inteqrasiya və qloballaşma siyasətinin ədəbiyyatşünaslıqda öz əksini tapması ilə bağlı kafedrada komparativistika (müqayisəli ədəbiyyatşünaslıq) yönlü tədqiqatlar aparılır. Həmçinin YUNESKO-nun dünya xalqlarının qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Novruz bayramı, aşıq yaradıcılığı və Çövkan oyunu mövzuları da əsas tədqiqat istiqamətləri sırasındadır.

**10.2.** Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

Bu sərəncama əsasən, “kafedranın nəzdində fəaliyyət göstərən “Folklor” dərnəyinin təqdimatında “Vaqif” dramı səhnələşdirilmişdir.

## 11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI

Kafedra fakültədə keçirilmiş elmi konfranslarda, simpozium və seminarlarda fəal iştirak edir. Kafedra 2017-ci ilin 21 fevral, 10 aprel, 13 dekabr tarixlərində **“Əzizə Cəfərzadə yaradıcılığında Novruz”, “ Azərbaycan ədəbiyyatında rənglər”, “Azərbaycan ədəbiyyatında musiqi alətləri”** mövzusunda magistrların elmi seminarlarını, Novruz bayramlarını, eləcə də folklorla bağlı viktorina və sərgilərini təşkil etmişdir. «Filologiyanın aktual problemləri» adlı Respublika elmi-nəzəri konfransı kafedranın professoru N.Q.Xəlilovun təşkilatçılığı ilə təşkil olunmuşdur. Ümumi olaraq, kafedra müdiri prof.S.H.Orucova fakültədə keçirilən 2 konfransın (2 respublika) təşkilat komitəsinin üzvüdür.

## 12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLANMASI

Kafedra elmi və elmi-pedaqoji kadrların hazırlanmasında fəal iştirak edir. 3 nəfər əyani: Gözəl Quliyeva, Arzu Həsənli, Jalə Rüstəmova magistr dərəcəsinə layiq görülmüşdür. Hazırda altı magistr təhsilini davam etdirir.

Kafedranın filologiya üzrə fəlsəfə doktoru proqramı üzrə iki doktorantı və iki dissertantı, filologiya üzrə elmlər doktoru proqramı üzrə isə dörd dokrotantı var. Cari ildə Gülnar Axundova filologiya üzrə fəlsəfə doktoru proqramı üzrə dissertanturaya qəbul olmuşdur.

Tələbələrin elmi-tədqiqat işlərinə marağın artırılması məqsədilə aşağı kurs tələbələrinə müxtəlif mövzular verilmiş, onlara elmi rəhbərlər təyin olunmuşdur.

Kafedrada 2017-ci ildə Folklor İnstitutundan əlavə rəyə gəlmiş 3 nəfərin dissertasiyasına aparıcı müəssisə kimi rəy verilmişdir.

Professor S.H.Orucova Şəbnəm Nizami qızı Məmmədovanın fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş “Azərbaycan-qaraqalpaq folklor əlaqələri”

mövzusunda dissertasiyasına rəsmi opponent rəyi, professor N.Q.Xəlilov Altay Ələddin oğlu Məmmədovanın fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş "Göyçəli aşıq Nəcəfin həyat və yaradıcılığı" mövzusunda dissertasiyasına rəsmi opponent rəyi, dos.E.Ə.Talıblı Kəmalə İsmayılovanın "Şah İsmayıl" dastanının variantları", dos.M.M.Məmmədov, Rəhilə Soltan qızı Səfərəliyevanın fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş "Azərbaycan xalq dastanlarında qəhrəman tipləri" dissertasiyana rəsmi oppent rəyi vermişdir.

## 13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ İXTİSASLAŞDIRILMIŞ ŞURALARIN FƏALİYYƏTİ

Kafedranın müdiri prof. S.H.Orucova AMEA-nın Folklor İnstitutunun Müdafiə Şurasının, kafedra müdiri olaraq isə fakültə Elmi Şurasının üzvüdür. prof.N.Q.Xəlilov magistratura və qiyabi şöbəsi üzrə dekan müavinidir. Dos.K.K.Həsənova AMEA-nın Folklor İnstitutunun nəzdindəki Seminar Şurasının, dos. M.Məmmədov BDU-nun Seminar Şurasının üzvü, eyni zamanda, Fakültə Elmi Şurasının katibidir. Fil.e.d.Ü.A.Nəbiyeva AAK-ın Ekspert Şurasında ekspertidir. Kafedranın dosenti İslamzadə Kəmalə Faiq qızı Nizami adına Ədəbiyyat Muzeyinin Elmi Şurasının üzvüdür.

## 14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ-TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI)

Kafedranın magistr və bakalavr pillələrində oxuyan tələbələr vaxtaşırı olaraq kafedranın təşkil etdiyi seminarlarda müxtəlif mövzularla çıxış edir, hər il çap olunan «Azərbaycan filologiyasının aktual problemləri» adlı məcmuədə və digər jurnallarda öz elmi məqalələrini çap etdirirlər. Kafedra 2017-ci ildə magistrların 3 elmi seminarını - "Əzizə Cəfərzadə yaradıcılığında Novruz", " Azərbaycan ədəbiyyatında rənglər", "Azərbaycan ədəbiyyatında musiqi alətləri" təşkil etmişdir. Məruzələr **"Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının Elmi seminarları (2016-2017)"** məcmuəsində çap olunmuşdur. Burada məruzə kafedra üzrə müdafiə

edən və təhsillərinə davam edən magistrantların oxuyan tələbələrin aşağıda qeyd olunan məqalələri çap edilmişdir:

**Aynurə Allahverdiyeva:**

1. **Türkün yanğılı nəğməsi "Sarı gəlin"** // Folklorşünaslıq" elmi-nəzəri jurnalı, 1/2017, səh.103-110

**Ayşən İbrahimzadə:**

1. **"Kitabi-Dədə Qorqud" dastanında qara rəngin semnatik simvolikası.** Bakı Dövlət Universitetində "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Filologiyanın aktual problemləri" Respublika Elmi-nəzəri Konfransın materialları. Bakı-2017

**Elfanə Qəniyeva:**

1. **Azərbaycan toy mərasiminin elçilik mərhələsi.** Bakı Dövlət Universitetində "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Filologiyanın aktual problemləri" Respublika Elmi-nəzəri Konfransın materialları. Bakı-2017

**15. 2017-Ci İLDƏ HANSI AVADANLIQLARININ ALINMASINA EHTİYAC DUYULUR (ADI, ALINACAQ AVADANLIQLARININ SAYI, TƏXMİNİ QİYMƏTİ, manatla):**

Kafedrada tədrisin və elmi–tədqiqat işlərinin yüksək səviyyədə keçirilməsini təşkil etmək üçün kafedranın aşağıdakı texniki avadanlıqla təhcizatına ehtiyac vardır: skaner, slaydların təqdimatı üçün proyektor və notebooka ciddi ehtiyac vardır.

**16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR**

Kafedrada aparılan elmi işlər folklorşünaslığımızı zənginləşdirir. Burada əldə edilən nəticələrin yekunları dərslik, dərs vəsaiti və Elmlər Akademiyasının nəşr etdiyi «Azərbaycan ədəbiyyatı tarixi» çoxcildliklərində istifadə oluna bilər. Bundan əlavə, kafedra «Azərbaycan folklorşünaslığı tarixi» monoqrafiyasını və «Azərbaycan dastanları», "Azərbaycan folkloru" (rus bölməsi üçün) adlı dərs vəsaitlərini nəşrə

hazırlamağı planlaşdırır. Tədqiqat işinin materiallarından gələcəkdə bu əsərlərin nəşrə olunması prosesində istifadə edilməsi nəzərdə tutulmuşdur.

Kafedra təklif edir ki, elmi tədqiqat işləri əsasında hər il ayrıca nəşrlər hazırlansın və tələbələr onlardan əlavə dərs vəsaiti kimi istifadə etmək imkanına yiyələnsinlər.

**Azərbaycan şifahi xalq ədəbiyyatı**
**kafedrasının müdiri: ___________ prof.S.H.Orucova**